# Milli varlığımızın simvolu



*Dünyanın ən zəngin dillərindən olan Azərbaycan dili xalqımızın milli kimliyinin, düşüncə tərzinin, mənəviyyatının əsasını təşkil edir. Tarixin ağır sınaqlarından çıxmış ana dilimizin kökləri minilliklərə gedib çıxır. Dədə Qorqud irsindən süzülərək bu günə qədər gələn qədim dilimiz xalqımızın varlıq nişanəsi, milli dövlətçiliyimizin simvoludur. Hazırda dünyada 5 minə yaxın dil mövcuddur, lakin onların yalnız 200-ə yaxını rəsmi dövlət dili statusuna malikdir. Bu gün dünyada 50 milyondan çox insan Azərbaycan dilində danışır. Dil yalnız ünsiyyət vasitəsi deyil, həm də əxlaqın aynası, vətənpərvərliyin mayası və ədəbiyyatın nəfəsidir Azərbaycan dilinin qorunması və inkişafında Ulu Öndər Heydər Əliyevin xidmətləri misilsizdir. Sovet imperiyasının milli dilləri sıxışdırdığı dövrdə Ulu Öndər Azərbaycan dilinin qorumaq uğrunda əsl qəhrəmanlıq göstərdi. 1978-ci ildə Konstitusiyaya Azərbaycan SSR-in dövlət dili Azərbaycan dilidir maddəsinin daxil edilməsi tarixi və cəsarətli bir addım idi.*

Heydər Əliyevin rəsmi tədbirlərdə Azərbaycan dilində çıxış etməsi, ədəbiyyat və mətbuata dəstək göstərməsi, ziyalılara və dilçilərə xüsusi münasibəti onun ana dilinə verdiyi yüksək dəyərin sübutudur. Məhz bu diqqətin nəticəsidir ki, 1995-ci ildə Azərbaycan dilinin dövlət dili statusu Konstitusiyada təsbit olundu, 2001-ci ildə isə latın qrafikalı əlifbaya keçid həyata keçirildi. 1 Avqust tarixinin Azərbaycan əlifbası və Azərbaycan dili günü kimi qeyd olunması dil siyasətimizin ideoloji və praktik əsaslarla davam etdirildiyini göstərir. 2002-ci ildə qəbul edilən "Dövlət dili haqqında" Qanun isə Azərbaycan dilinin hüquqi statusunu tam olaraq nizamlayıb. Ulu Öndərin məşhur kəlamı bu gün də gənclərə yol göstərir: "Dil, dil, bir də dil... Bizim gənclərə deyirəm ki, rus dilini də, ingilis, fransız dilini də yaxşı bilin. Amma bunların hamısından yaxşı öz Azərbaycan dilimizi öyrənin. Əgər bunu bilməsən, sən tam azərbaycanlı olmursan".

Ulu Öndərin dil siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. 2018-ci ildə imzalanmış "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Fərman bu istiqamətdə atılan əhəmiyyətli addım oldu. Azərbaycan dili sadəcə rabitə vasitəsi deyil, həm də milli yaddaşımız, tarixi varlığımız və mənəvi birliyimizdir. Azərbaycan dili bizi yüzillər boyunca bir xalq kimi qoruyub. Müstəqil dövlətimizin olmadığı dövrlərdə belə dilimiz milli kimliyimizi yaşadan əsas dayaqlardan biri olub. Ona görə də ana dilimizi qorumaq, inkişaf etdirmək və gələcək nəsillərə sevdirmək hər bir azərbaycanlının borcudur. Həmçinin ana dili müəllimlərinin cəmiyyətə verdiyi töhfələri də unutmaq olmaz. Ana dilini bizə sevdirən, müəllimlərimizin əməyi danılmazdır. Onların zəhməti sayəsində Azərbaycan dili özünün ən parlaq dövrünü yaşayır. 1 Avqust həm də bu müəllimlərin günüdür. Bütün ana dili müəllimlərini təbrik edir, onlara uğurlar arzulayıram.

**Mehriban VƏLİYEVA,**
**Milli Məclisin deputatı.**

Respublika.- 2025.- 1 avqust (№ 158).- S.8.